# GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ

## 2020/2021-tədris ilinin yaz imtahan sessiyasında bakalavriat səviyyəsində qabiliyyət imtahanlarının keçirilməsi barədə

## T Ə L İ M A T

Azərbaycan Respublikası Təhsil Nazirliyinin tövsiyyəsini əsas tutaraq Gəncə Dövlət Universitetində 2020/2021 tədris ilinin yaz semestrində qabiliyyət tələb olunan ixtisaslarda (Pedaqoji fakültədə "Musiqi müəlimliyi", Fizika və texniki fənlər fakültəsində "Təsviri incəsənət müəllimliyi") dərslər ənənəvi qaydada əyani formada keçirilmişdir. Tələbə gündəlik dərslərdə iştirak etmiş və müəlimlər sorğu suallar əsasında tələbənin biliyini qiymətləndirmişdir. Tələbənin yekun imtahan balı gündəlik dərslərdə davamiyyətə, praktik dərslərdə tələbənin qiymətləndirməsinə görə verilən bal və imtahan balı əsasında formalaşır.

***1. Davamiyyətə görə toplanan bal***

Tələbənin dərslərə davamiyyət balı (maksimal 10 bal) ənənəvi qaydada keçirilən məşğələlərdə müəllim tərəfindən qeyd olunmuş saatlar əsasında formalaşır. Tələbənin fənn üzrə dərslərdə iştirak etmədiyi saatların həmin fənnə ayrılmış ümumi saata faiz nisbətinin hər 10 % -nə uyğun 1 bal çıxılır. Bu mərhələdə toplanan maksimal bal 10 baldır.

***2. Gündəlik qiymətləndirməyə görə toplanan bal***

Tələbənin semestr ərzində hər bir fənndən ənənəvi qaydada keçirilən məşğələlərdə gündəlik topladığı ballar cəmlənir və orta bal tapılaraq 4-ə vurulur. Bu mərhələdə toplanan maksimal bal 40 baldır.

**3. *İmtahan nəticələrinə görə toplanan bal***

Tələbənin imtahan balı ona verilmiş qabiyyət tapşırığının distant formada icrası ilə müəyyənləşir. Qabiliyyət imtahanına 2 saat vaxt ayrılır. Hər birində 5 sual olmaqla biletlər hazırlanır və tədris hissəsində təsdiqlənir. Hər sual 0-10 balla qiymətləndirilir. İmtahan prosesi WhatsApp platformasından istifadə etməklə təşkil olunur. Bunun üçün WhatsApp qrupları yaradılır. Qabiliyyət imtahanının başlanmasına 10 dəqiqə qalmış tələbəyə (ola bilər bir qrup tələbəyə) təqdim olunan biletin şəkli çəkilərək WhatsApp qruplarına göndərilir. Tələbə 2 saat ərzində ona təqdim olunan sualları cavablandırmalı və tyutora göndərməlidir.

Təsviri incəsənət müəllimliyi ixtisasında tələbənin sayından asılı olaraq eyni bir tapşırıq bir neçə variantda hazırlanır (müxtəlif görünüşlər). Tələbənin hansı variantı yerinə yetirməsi

biletdə bildirilir. Tələbə 2 saat ərzində tapşırığı yerinə yetirir, qrupunu, ad və soyadını göstərməklə tapşırığın şəkilini çəkir və tyutora göndərir.

Musiqi müəllimliyi ixtisasında hər bir tələbəyə ayrıca bilet təqdim olunur. Tələbə 2 saat ərzində biletdəki tapşırığı yerinə yetirməsinin videosunu çəkərək tyutora göndərir.

Tələbənin göndərdiyi cavab komissiya tərəfindən qiymətləndirilir. Bu mərhələdə tələbə ən çoxu 50 bal toplaya bilər. Beləliklə tələbənin toplaya biləcəyi ümumi balın miqdarı (maksimal) 40+10+50 baldır. Növbəti imtahana qədər imtahan qiyməti tələbəyə WhatsApp mühitindən istifadə edərək çatdırılır.

İmtahanın başlanma vaxtı imtahan cədvəlində göstəriləcək.

**I kurs tələbələri üçün imtahanlar saat 10:00-da,**

**II kurs tələbələri üçün saat 12:00-da,**

**III kurs tələbələri üçün saat 14:00-da,**

**IV kurs tələbələri üçün saat 16:00-da başlayır.**

Tələbə imtahan qiymətindən narazı olduqda imtahan qiymətini bildiyi gün universitet üzrə yaradılmış apellyasiya komissiyasına müraciət etməlidir. Tələbənin müraciəti internet vasitəsi ilə ***apelyasiya@gdu.edu.az*** elektron ünvanına göndərilməlidir. **İmtahan qiymətini bildiyi gündən sonrakı günlərdə Apelyasiya komisiyasına göndərilən ərizələrə baxılmayacaq!**

Ərizə nümunəsi təlimatın sonuna əlavə edilir.

***İMTAHAN MƏRKƏZİ***

**Nümunə**

*Gəncə Dövlət Universitetinin rektoru*
*prof. Y.Ə.Yusibova*
*Təsviri incəsənət müəllilmliyi ixtisasının*
*3-cü kursun 1-ci qrup tələbəsi Göyüşov*
*Bayandur Osman oğlundan*

**Ə R İ Z Ə**

Hörmətli Yusif müəllim!

07.06.2021-ci il tarixdə "Rəsm-6" fənnindən imtahan vermişəm. Mənim imtahan biletində əks olunmuş suallara verdiyim cavablar düzgün qiymətlədirilməyib. Mənim cavablarımın yenidən yoxlanmasını xahiş edirəm.

*İmza:* *B.O.Göyüşov*

*Tarix 10.06.2021*